# GÖZƏLİM SƏNSƏN

**Andantino e molto espressivo**




Gözəlim sənsən,
Gözümün nuru.
Cənnətdə yoxdur
Sənin tək huri.

Uca dağ başında
Ceyran yol eylər,
Ürəyimin başında
Tikan kol eylər.

Öldürür məni
Yarımın cövrü,
Ona mən vuruldum,
Ona mən yar oldum.

Gözəlim sənsən,
Gözümün nuru.
Cənnətdə yoxdur
Sənin tək huri.

N ə q ə r a t:

Yaralıyam, dəymə, dəymə, dəymə, dəymə!
Gülümün butasın əymə, əymə, əymə!